# Dumanlı Albionun işıqlı məktəbləri

## Yaxud Böyük Britaniya təhsil sisteminin parlaq təmsilçiləri

Xaricdə təhsildən danışarkən əksəriyyətimizin gözləri önünə ilk olaraq Böyük Britaniyanın təhsil ocaqları gəlir. Həm tarixinə, həm ənənələrinə, həm də tədris prosesinin keyfiyyətinə görə Dumanlı Albionun ali və orta məktəbləri bütün mümkün reytinqlərin ilk pillələrini "işğal" ediblər. Bu azmış kimi, dünyada bir Britaniya təhsil standartı da hökmranlıq edir, əksər ölkələrin təhsil sisteminin  əsasında məhz bu və ya digər formada Britaniya praktikası durur.

Britaniyanın təhsil sistemi şagird və tələbələr üçün sərt və çətin kimi qiymətləndirilir. Ancaq bu xarakteristika onun uğuruna bir anlıq belə kölgə sala bilməz. Ölkənin dünyaca ünlü təhsil ocaqları var ki, özlərinin bir sıra özəllikləri - keçilən predmetlər, məktəblərin strukturu, şagird, yaxud tələbə ilə müəllim kontingenti arasında olan münasibətlər baxımından ümumilikdə təhsil sisteminə əlavə rəng, çalar qatırlar. Gəlin onlardan bir neçəsi ilə yaxından tanış olaq.

*1. Baksvud özəl məktəbi*

Londondan saatyarımlıq məsafədə yerləşən Baksvud Beynəlxalq Məktəbinin əsası 1933-cü ildə qoyulub. Bu məktəbdə yerli əhali ilə yanaşı, dünyanın dörd bir yanından olan 10-18 yaşlı uşaqlar təhsil alırlar. TASS-ın məlumatına görə, hazırda məktəbdə 48 millətin 440 təmsilçisi oxuyur. Bu təhsil ocağında uşaqlara nə az, nə çox - 10 dil öyrədilir.

### Futbol akademiyası və şərabçılıq

Uşaqların tən yarısının yaşadıqları kampus geniş və gözəl yaşıl çəmənlikdə yerləşir. Burada dizayn və incəsənət mərkəzi, teatr, musiqi və rəqs studiyaları, tennis kortundan tutmuş hovuzadək hər növ idman qurğuları var. Ərazinin çox böyük olmasına baxmayaraq, məktəbdə bir ev ab-havası hökm sürür. Təsadüfi deyil ki, direktor 440 uşağın hər birini adı və soyadı ilə çağırır, onları şəxsən tanıyır.

Baksvudda "Çelsi" futbol klubu ilə müştərək futbol akademiyası fəaliyyət göstərir. Akademiyanın başında "Çelsi" və "Tottenhem Hotspur"un gəncləri ilə işləmiş Deril Villard durur. Bu səbəbdən məktəb peşəkar futbolla məşğul olmaq istəyən gənclər üçün əla fürsətdir.

⇨Ardı səh.9

# Dumanlı Albionun işıqlı məktəbləri

⇦ Əvvəli səh.1

## Yaxud Böyük Britaniya təhsil sisteminin parlaq təmsilçiləri

Rüstəm QARAXANLI



Təsadüfi deyil ki, məzunların arasında İngiltərənin "Mançester Siti", İtaliyanın "Milan", İspaniyanın "Malaqa" kimi komandalarınadək gedib çıxan futbolçular var.

Çoxları üçün qeyri-adi görünəcək, ancaq Baksvudu digər nüfuzlu məktəblərdən fərqləndirən özəlliklərdən biri də şəxsi şərab təsərrüfatının olmasıdır. Özü də şərab istehsal etmək təşəbbüsü elə uşaqlardan gəlib. Biznes-dərslərdən birində belə bir fikir irəli sürülüb ki, məktəbin yerləşdiyi ərazi Britaniyanın ən çox günəş görən hissəsinə aid olduğundan burada şərabçılığı sınaqdan keçirmək olar. Cəhd uğurlu alınıb. Şərqi Susseks qraflığı ümumiyyətlə, Fransanın şərabçılıq bölgələri ilə həmsərhəddir və burada müəyyən ənənələr tarixən mövcud olub. Hər il Baksvudda xeyriyyə aksiyaları keçirilir, satılan şərabdan əldə edilmiş vəsait müxtəlif fondlara köçürülür. Bu fəaliyyət məktəbdə bir sıra istiqamətlərin - marketinq və dizayn işinin inkişafına da öz təsirini göstərir.

### "Əyinə biçilmiş" təhsil

Hər yarım ildən bir Baksvudun şagirdləri xarici səfərlərə gedirlər. Ən çox seçilən istiqamətlər ekzotik ölkələr olur. Məsələn, CAR-la Mozambikin arasında yerləşən Svazilend Krallığı. Bu ölkəyə səfər zamanı uşaqlar hətta ölkə kralı ilə də görüşməyə müvəffəq olurlar. Adətən belə yerlərdə olarkən baksvudlular müxtəlif xeyriyyə işlərində iştirak edir, misal üçün, ehtiyacı olan ərazilərə su xəttinin çəkilişinə yardım edirlər. Məktəbin direktoru Cill Satton hesab edir ki, onun rəhbərlik etdiyi təhsil ocağının ən mühüm özəlliyi uşaqların "tailored education" almalarıdır. Yəni, "əyinə biçilmiş" təhsil. Sattonun fikrincə, bu sistemin əsas missiyası uşaqları vahid sistemə, təhsili isə uşağın imkanlarına adaptasiya etməkdən ibarətdir.

*2. İngiltərə və Uelsin Diplomlu Mühasiblər İnstitutu (Institute of Chartered Accountants in England and Wales, ICAEW)*

Bu ali məktəbin yaradılmasının başlıca səbəbi sənaye inqilabı zamanı Britaniyada mühasib peşəsinin populyarlıq qazanmasıdır. XIX əsrin sonlarında mühasiblərin statusunu yüksəltmək, peşəkar etika normalarını yaratmaq və yeni mütəxəssisləri yetişdirmək üçün regional birliklər yarandı. Əvvəl belə birliklər bir neçə şəhərdə fəaliyyət göstərirdi. Sonra onlar vahid mərkəzdən idarə olunmaq məqsədilə birləşdilər və beləliklə də İngiltərə və Uelsin Diplomlu Mühasiblər İnstitutunun əsası qoyuldu. Kraliça Viktoriya 1880-ci ilin 11 mayında yaranmış ali məktəbin banisi hesab edilir. Hazırda ali məktəb mühasibat uçotu, audit və yeni tədris proqramlarının hazırlanması ilə də məşğuldur.

### And içmiş mühasiblər

Bu ali məktəbi bitirmiş məzunlara "And içmiş mühasiblər" adı verilir. Bu, magistrə bərabər dərəcə sayılır. Dərəcəyə sahib olan şəxslər auditor sferasının "böyük dördlüyü" - "PricewaterhouseCoopers", "Deloitte", KPMG, "Ernst&Young" şirkətlərində asanlıqla işə düzələ bilirlər. Ali məktəb bütün dünya üzrə 3600-dək sayılıb seçilmiş şirkətlərlə əməkdaşlıq edir. İşə düzəlmək üçün məzunun ən azı 450 günlük iş təcrübəsi olmalıdır ki, institutun həmin şirkətlərlə mövcud olan işgüzar əlaqələri buna imkan verir.

*3. London İncəsənət Universiteti (University of the arts London, UAL)*

Artıq neçə onilliklərdir ki, Britaniya memarlıq, incəsənət və ədəbiyyatda novatorluğu əldən vermir. Tək elə Teyt Modern sərgisini qeyd etmək yetərlidir. Bu səbəbdəndir ki, dünyanın incəsənət və yaradıcılıq sahəsində ən tanınmış təhsil ocaqlarından biri, Avropanın sözügedən sahədə ən iri ali məktəbi - İncəsənət Universiteti məhz Londonda yerləşir.

**Hər yarım ildən bir Baksvudun şagirdləri xarici səfərlərə gedirlər. Ən çox seçilən istiqamətlər ekzotik ölkələr olur. Məsələn, CAR-la Mozambikin arasında yerləşən Svazilend Krallığı. Bu ölkəyə səfər zamanı uşaqlar hətta ölkə kralı ilə də görüşməyə müvəffəq olurlar.**

Universitet hər biri bir əsrlik tarixi olan 6 kollecdən ibarətdir. Onların birləşməsi 1986-cı ildə baş verib. Ali məktəbin məzunları arasında xeyli tanınmış simalar var: aktyorlar Pirs Brosnan, Rayf Fayns, Tom Hardi, Maykl Farssbender, Tim Rot, dizaynerlər Con Qalyano, Aleksandr Makkuin, Cimmi Çu, Stella Makkarti və başqaları. Universitetdə birləşmiş kolleclər müxtəlif vaxtlarda səs-küy yaratmış novator layihələr üçün meydança rolunu oynayıblar.

*4. Con Murs adına Liverpul Universiteti*

Liverpul tək eyniadlı futbol komandası və "The Beatles" qrupu ilə deyil, həm də ölkənin ən nüfuzlu ali məktəblərindən biri olan universiteti ilə də məşhurdur. Bu ali məktəb populyar biznesmen və filantrop Con Mursun adını daşıyır. Universitetin tarixi 1823-cü ildən başlayır. Təhsil ocağı ilk olaraq Mexanika məktəbi kimi tanınıb, 10 il sonra isə instituta çevrilib. 1844-cü ildə burada Çarlz Dikkens özünün məşhur nitqlərindən birini söyləyib. Bu çıxışa qulaq asmaq üçün biletin qiyməti indiki ekvivalenti ilə 10 ABŞ dolları olub.

Universitetin tələbəsi, rəssam Stuart Satklif çəkdiyi şəkli bədii sərgidə Con Mursa 83 dollara satmağa müvəffəq olub. Bu pula o, gitara alıb və Con Lennonun dostu olduğundan "The Beatles"in ilkin heyətində gitaraçı kimi çıxış edib. 2013-cü ildə universitetə daxil olan Dizayn və incəsənət akademiyasına Con Lennonun adını veriblər. Lennon ümumiyyətlə, bu ali məktəbin ən populyar tələbələrindən biri olub. Onun adının akademiyaya verilməsinə baxmayaraq, Lennon təhsilini sona qədər davam etdirə bilməyib, sonuncu kursda universitetdən qovulub.

Universitetdə "World of Work" adlı xüsusi proqram fəaliyyət göstərir. Dilimizə "İş dünyası" kimi tərcümə olunan bu proqramda dünyanın 100-dən çox məşhur şirkəti iştirak edir. Proqram magistr-iştirakçılara iqtisadiyyatın əksər sferalarında faktiki olaraq iş tapmağa təminat verir. Belə ki, universitetin məzunları dünya əmək bazarında olduqca yüksək qiymətləndirilirlər. Son 10 ildə universitet elmin inkişafına 200 milyon dollar pul xərcləyib. Bu vəsait əsas etibarilə elmi infrastrukturun inkişafı və novator ideyaların ərsəyə gəlməsinə yönəldilib.

*5. Portsmut Universiteti*

Bu ali məktəbin tarixi 1869-cu ildən başlayır. Əvvəl Elm və incəsənət məktəbi kimi fəaliyyət göstərib. 1908-ci ildə əsas binasına köçən məktəb bələdiyyə kollecinə çevrilir. 80 il genişlənən təhsil ocağı 1992-ci ildə universitet statusu alıb.

Portsmut Universiteti çoxprofillidir. Təsadüfi deyil ki, ali məktəb 40 binadan ibarətdir. Faktiki bütöv bir şəhər! Portsmutun əhalisi üçün bu ali məktəb həm də bir iş yeridir, ən azı 2500 nəfər burada daimi işlə təmin olunur. Məzunların əksəriyyəti təhsillərini başa çatdırdıqdan sonra şəhərdə qalıb işləyirlər. Səhiyyədən tutmuş məhkəmələrədək bütün sahələrdə "Portsmut uşaqları" işləyir.

### Karyera mərkəzi

Hazırda Portsmut Universiteti "Times Higher Education"un reytinqinə əsasən, dünyanın ən nüfuzlu 100 gənc ali məktəbi siyahısına daxildir. Təhsil ocağında bu uğuru praktiki dərslərə verdikləri önəm və diqqətlə əlaqələndirirlər. Univesitet binaların tikintisi, laboratoriyaların təkmilləşdirilməsi, müasir qurğuların və təhsil resurslarının alınmasına son 10 ildə 230 milyon dollar vəsait xərcləyib. Kitabxananın yenidən qurulmasına 5 milyon, sərgi kompleksinə 11 milyon, mühəndis mərkəzinin quraşdırılmasına isə 14 milyon dollar sərf olunub. Universitetin beynəlxalq inkişaf üzrə direktoru Bobbi Meht deyir ki, tələbələrə tək nəzəri deyil, həm də praktiki biliklər verirlər. Belə ki, univesitetdə məhkəmə iclas zalları, məhkəmə-tibbi ekspertiza mərkəzi, tibbi kabinetlər, televiziya studiyası, redaksiya fəaliyyət göstərir. Məzunların demək olar hamısı ya sonuncu kursda, ya da təhsili bitirdikdən sonra 6 ay ərzində işlə təmin edilirlər. İşsiz qalan olmur.

*6. London İmperial Kolleci*

Britaniyanın ən məşhur ali məktəblərindən olan London İmperial Kollecinin əsası 1907-ci ildə qoyulub. Kollec məşhur "üçbucağ"a daxil olan 3 ali məktəbdən biridir. Digər ikisi isə Oksford və Kembricdir. Kollecdə 125 ölkədən 16 min nəfər təhsil alır, 8 min əməkdaşı var. Əsas istiqamətlər elm, səhiyyə, mühəndislik və biznesdir. Bu ali məktəb QS və "Times Higher Education"un reytinqlərində ilk "səkkizliy"ə daxildir.

Kollecin məzunları arasında kimlər yoxdur? Rok-musiqiçi Brayan Mey, "Gözəgörünməz adam" və "Dünyaların müharibəsi" fantastik əsərlərinin müəllifi Gerbert Uells, ilk kanadalı astronavt Marko Qalo, Hindistanın sabiq baş naziri Raciv Qandi, ilk antibiotikin yaradıcısı, bakterioloq Aleksandr Flemminq, Darvinin təkamül nəzəriyyəsinin ardıcılı Tomas Qeksli, ilk elektron lampanın ixtiraçısı Con Ambroz Fleminq və b. Hazırda İmperial Kollecin məzunları arasında 14 Nobel laureatı var.